# CCS AC Liquid Membrane

*Akrilik polimer əsaslı, UV dayanıqlı elastik su izolyasiya materialı*

**Məhsul haqqında:**

**CCS AC Liquid Membrane,** terras, dam, beton kanallarda və eksteryerlərə tətbiq olunan akrilik qatran əsaslı, günəşin UB şüalarına davamlı, tək komponentli, istifadəyə hazır elastomer xüsusiyyətli hidroizolyasiya materialıdır.

**Tətbiq sahələri:**

-Xarici məkanlarda, üfüqi və şaquli tətbiqlərdə,

-Meylli terras damlarda,

-Beton, keramika və sinkli metal kanallarda,

-Binaların şimal eksteryerlərində istifadə olunur.

**Üstünlükləri:**

- İstifadəyə hazırdır, fırça ilə tətbiq olunur,
- Günəşin istisindən təsirlənmir və ağ rəngi sayəsində UV şüalarına davamlıdır.
- Aşağı temperaturda belə elastikliyini qoruyur,
- Hazırlanması və tətbiqi asandır,
- Yüksək yapışma təmin edir,
- Üzəri boyana bilər,
- Tərkibində həlledici yoxdur,
- Donma-ərimə dövrlərinə davamlıdır.

**Texniki məlumat:**

Modifikasiya edilmiş polimer qatran

| | |
|---|---|
| Rəng | : Ağ |
| Qatılığı | : Fırça sərtliyində |
| Sıxlıq | : 1,28±0,05 kq/lt |
| Tətbiq olunan səth temperaturu | : +5 °C   25 °C |
| Servis temperaturu | : -20 °C  120 °C |
| Su buxarı keçiriciliyi | : Sinif 1 |
| Kapilyar su udma və su keçiriciliyi | : Maks. 0,1 $kq/m^2h^{0,5}$ |
| Səthin qorunma müddəti | : 4-5 saat |

Qeyd: Yuxarıdakı göstəricilər +23°C və 50% nisbi rütubət şəraiti üçün verilmişdir.

**İstifadə qaydaları**

**Səthin hazırlanması** : Tətbiq ediləcək səthlər möhkəm olmalı, səthə yapışmaya mane olacaq hər cür yağ, kir, pas, parafin, boya və bitum qalıqlarından təmizlənməlidir. Nahamar səthlər **CCS Mortar** seriyalı təmir məhlulları ilə doldurulmalıdır. Yeni suvanmış və beton səthlərə 28 günlük polimerləşmə müddətini tamamladıqdan sonra tətbiq edilməlidir. Künclər və kənarlar **CCS Mortar ST60** ilə 4 sm paxlanmalıdır. Səthdəki boşluqlar **CCS Mortar 30** ilə təmir edilə bilər.

**Qarışdırma:**

**CCS AC Liquid Membrane** istifadəyə hazır materialdır. Astar tətbiqində materiala 50% su əlavə edilməli və mikserlə 400-600 rpm sürətlə 3-5 dəqiqə qarışdırılmalıdır. Birinci qat tətbiqində 20% su əlavə olunmalı və mikserlə 400-600 rpm sürətlə 3-5 dəqiqə qarışdırılmalıdır. İkinci qat su ilə qarışdırılmadan tətbiq edilməlidir.

**Tətbiq qaydaları:**

Hazırlanmış astar səthə fırça və ya rulonla çəkilməlidir (200 qr/m²). Astar quruduqdan sonra digər təbəqələr 1-1,50 mm qalınlığında (nəm qatı olaraq) tətbiq edilməlidir. Çatlar, dərzlər, künclər

**CCS.az LLC**
**Adress:** Sabail district, Badamdar highway 18, Baku, Azerbaijan
**Phone:** +994 12 567 97 09 / 10
**Web:** www.ccs.az
**E-mail:** info@ccs.az

və kənarlar 165 qramlıq su izolyasiya toru və ya **CCS Glassfiber Mesh** ilə dəstəklənməlidir.

**CCS AC Liquid Membrane** su çəni, hovuz və bünövrə izolyasiyası üçün uyğun deyil. Tətbiq olunan material ilk 24 saat ərzində yağışdan və donmadan qorunmalıdır. Tətbiqlərdə hər təbəqənin qalınlığı 1-1,50 mm-dən çox olmamalıdır. Üzərində gəzmək lazım olan səthlərdə ehtiyat tədbirləri görülməlidir. Yaş və nəm səthlərə tətbiq edilməməlidir. Qatlar arasında quruma müddətləri nəzərə alınmalıdır.

**CCS AC Liquid Membrane** ağ rəngdə istehsal olunur. Material miqdarının 5% -dən çox olmamaq şərti ilə pasta piqmentlə rənglənə bilər. **CCS AC Liquid Membrane** quruduqdan sonra rəngini dəyişmək istənilərsə, CCS Extra Acryl Paint və ya akril əsaslı elastik fasad boyası ilə rənglənə bilər.

**Qablaşdırma:**

5 və 20 kq-lıq plastik qablarda

**Sərfiyyat:**

| | |
|---|---|
| 1 mm yaş plyonka qalınlığı üçün: | 1.36 kq/m2 |
| 1 mm quru plyonka qalınlığı üçün: | 2.10 kq/m2 |
| Su kanalları və navalçalarda: | 2-3 kq/m2 |
| Dam və Terraslarda: | 3-4 kq/m2 |

**Saxlama müddəti:**

Açılmamış kisədə rəf ömrü 12 aydır (günəş görməyən mühitdə). **CCS AC Liquid Membrane** 0°C-dən aşağı temperaturda donur. Açılan bağlamalar möhkəm bağlanmalı, müvafiq saxlama şəraitində saxlanmalı və bir həftə ərzində istifadə edilməlidir.

Məhsul sirkulyasiyasına diqqət edilməlidir. Qısamüddətli saxlanma zamanı material üst-üstə 3 paletdən çox olmayaraq yığılmalı, göndərilmə isə 1-ci daxil olan kisə 1-ci çıxar prinsipinə uyğun yerinə yetirilməlidir. Uzun müddətli saxlama üçün paletlər üst-üstə yığılmamalıdır.

**Sağlamlıq və təhlükəsizlik:**

Məhsulla bağlı Avropa Birliyinin direktivlərinə uyğun olaraq hazırlanmış Təhlükəsizlik Məlumat Vərəqinə (SDS) əməl edin.

**CCS.az LLC**
**Adress:** Sabail district, Badamdar highway 18, Baku, Azerbaijan
**Phone:** +994 12 567 97 09 / 10
**Web:** www.ccs.az
**E-mail:** info@ccs.az